# KİTABXANAŞÜNASLIQ

*X.Məlikzadə. Mirzə Fətəli Axundov adına Milli Kitabxana xalqımızın mədəni sərvətidir // Əlyazmalar yanmır, 2023, №1 (16), s. 137-142.*

UOT: 02

**Xanımbacı Məlikzadə**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: melikzade1977@inbox.ru*

## MİRZƏ FƏTƏLİ AXUNDOV ADINA MİLLİ KİTABXANA XALQIMIZIN MƏDƏNİ SƏRVƏTİDİR

**Xülasə**

Məqalədə M.F.Axundov adına Milli Kitabaxananın bir əsrlik tarixinə qısa nəzər salınır və müasir vəziyyəti təhlil edilir. Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra kitabxana işi haqqında imzaladığı qanunlar və sərəncamların Milli kitabxananın inkişafına səbəb olmasını diqqətə çatdırılır. Müəllif qeyd edir M.F.Axundov adına Milli Kitabxana xalqımızın informasiya təminatına, mədəni inkişafına, elminə, təhsilinə xidmət etmiş, milli dövlətçiliyimizin möhkəmləndirilməsində, milli ideologiyamızın formalaşmasında və təbliğində yaxından iştirak etmişdir.

***Açar sözlər:*** *kitabxana işi, Milli Kitabxana, Heydər Əliyev, mədəni siyasət*

**Giriş**

*Kitabxana başər cəmiyyətinin yaratdığı ən qədim ictimai təsisatlardan biri kimi yarandığı zamandan cəmiyyətin elmi-mədəni inkişafına xidmət etmişdir. Azərbaycan xalqı dünyanın sivil xalqlarından biri olduğundan tarixən burada özünəməxsus kitab və kitabxana mədəniyyəti formalaşmışdır. Hələ orta əsrlərdən məscid və mədrəsə kitabxanaları və saray kitabxanaları fəaliyyət göstərmişdir. Bundan əlavə görkəmli ziyalılara məxsusu şəxsi kitabxanalar da olmuşdur. Xüsusilə, XX əsr elmin, texnikanın yüksək səviyyədə inkişafı mədəniyyətin əsas atributu olan ümumi kitabxanaların təşkilində mühüm amil oldu.*

1918-1920-ci illərdə fəaliyyət göstərən müstəqil Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın mədəni həyatında mühüm əhəmiyyət kəsb edən Milli Kitabxananın yaradılmasını zəruri saymış və bu barədə xüsusi qərar qəbul etmişdir. Lakin rus sovet imperiyası tərəfindən Azərbaycanın işğalı bu qərarın yerinə yetirilməsinə imkan vermədi. Məhz buna görədir ki, Azərbaycanda sovet hakimiyyətinin qurulmasının ilk günlərindən Azərbaycan İnqilab Komitəsi Milli Kitabxananın yaradılması məsələsini zəruri bir məsələ kimi irəli sürdü [ 3, s. 273].

Nazirlər kollegiyası Milli Kitabxananın (Dövlət Ümumi Kitabxanasının) təşkili haqqında qərar qəbul etdi. Lakin kitabxananı təşkil etmək üçün bina, avadanlıq və vəsait olmadığından bu işi reallaşdırmaq mümkün olmadı. Kitabxananı təşkil etmək işi müvəqqəti olaraq dayandırıldı

və Məktəbdənkənar İşlər İdarəsinə kitabxananı yaratmaq üçün geniş hazırlıq işi aparılması tapşırıldı. Lakin milli kitabxananın təşkili xeyli ləngidi. Kitabxananın açılışına geniş hazırlıq aparıldıqdan sonra 1923-cü ilin iyun ayının 5-də kitabxana rəsmiyyətə salınaraq oxucuların ixtiyarına verilmişdir [3, s.243].

Kitabxana açılarkən onun iki şöbəsi (Avropa ədəbiyyatı şöbəsi və Şərq ədəbiyyatı şöbəsi) və fondunda 20.441 nüsxə kitab var idi. Kitabxanada cəmi 13 nəfər kitabxanaçı işləyirdi [4, s. 273].

Kitabxananın komplektləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Kitabxana Azərbaycanda nəşr edilən bütün çap məhsullarından məcburi nüsxə və SSRİ Dövlət Kitab Palatasından kitablar alırdı [4, s.276].

Respublikamızın ən böyük kitabxana müəssislərinidən biri olan M.F.Axundov adına Respublika Dövlət Kitabxanası ölkəmizin kitabxana sistemində aparıcı yer tutur. M.F.Axundov adına Dövlət kitabxanası uzun illər Respublikanın ən böyük kitab saxlayıcısı, elm, informasiya mərkəzi kimi fəaliyyət göstərmişdir. Burada SSRİ-nin digər respublikalarından kitablar alır, oxucuların istifadəsinə təqdim edirdi.

Müstəqillik illərində dövlətin qayğısı sayəsində M.F.Axundov adına Milli Kitabxanası böyük iqtisadi çətinliklərin öhdəsindən gəlməyə nail oldu və ölkənin baş kitabxanası kimi respublikada bütün kitabxanaların elmi-metodik təminat mərkəzi funksiyasını dayandırmadı. Xüsusilə, Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı keçid dövründə problemlərlə üzləşən mədəniyyət sahəsində inkişafa səbəb oldu. Mədəniyyət işçilərinin əməyinə qayğısı nəticəsində onlarla mədəniyyət işçisi mukafatlandırıldı. Onun sərəncam və fərmanları bir çox sahələrdə olduğu kimi mədəniyyət sahəsində də irəliyişlərə təkan oldu. H.Əliyevin hakimiyyəti dövründə kitabxanaların maddi-texniki bazası gücləndi.

H.Əliyevin imzaladığı 1998-ci il 06 fevral tarixli "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu 9 fəsil 51 maddədən ibarətdir. Burada Kitabxana fəaliyyəti adlanan 24-cü maddədə xüsusi olaraq kitabxanaların funksiyası açıqlanır.

Bundan başqa 29 dekabr 1998-ci ildə H. Əliyevin imzaladığı "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu kitabxana sahəsində mühüm normativ hüquqi bazadır. Bu qanun 6 fəsil 34 maddədən ibarətdir və 7-ci maddə Milli kitabxana adlanır və burada Milli kitabxananın statusu müəyyənləşdirilir.

Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitab saxlayıcısıdır.

Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat işləri üzrə aparıcı müəssisə və əlaqələndirici, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya və informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir.

Milli Kitabxana müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan əsasnaməyə uyğun fəaliyyət göstərir.

Milli Kitabxananın fondu və əmlakı milli sərvət hesab olunan və xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur.

Milli Kitabxana statusuna malik olan kitabxanaların işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir.

Milli Kitabxananı ləğv etmək, mülkiyyət formasını dəyişmək qadağandır.

Milli Kitabxanaya əvəzsiz və müddətsiz istifadə üçün qanunvericilikdə müəyyən olunmuş torpaq sahəsi verilə bilər [2].

Bundan əlavə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 mart 2000-ci il tarixli 30 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Milli Kitabxanasının Əsasnaməsində Kitabxananın statusu müəyyənləşdirilir və burada göstərilir ki Milli Kitabxana respublikada tipindən və növündən asılı olmayaraq bütün kitabxanalar üçün metodik mərkəzdir.

Əsasnamənin "Milli Kitabxana Dövlətin milli irsidir" adlanan 4-cü fəslin 1-ci bəndində qeyd olunur: Milli Kitabxannaın fondu və əmlakı milli sərvət hesab olunur və xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur [6].

Müstəqilliyimizin əvvəllərində Kitabxana ölkədə mövcud olan iqtisadi çətinliyə baxmayaraq bu işi qeyri-dövlət donor təşkilatların köməyi ilə həyata keçirməyi, bu sahədə uğurlar əldə etməyi bacardı. Belə ki, 1998-ci ilin sonunda kitabxana USAlD-in vəsaiti hesabına Avrasiya Fondundan udduğu qrant əsasında beynəlxalq İnternet şəbəkəsinə qoşulmuşdur. 1999-cu ilin əvvəlində isə kitabxana yenə də bu fonddan "Kontakt qrantı" udmuşdur. Bu qrant əsasında isə kitabxananın əməkdaşları Tbilisi kitabxanalarında olmuş və Gürcüstan İnformasiya Mütəxəssislərinin Assosiasiyası (AİS) ilə birgə Avrasiyanın əməkdaşlıq proqramı çərçivəsində "Cənubi Qafqaz dövlətlərinin kitabxana və informasiya işçilərinin regional informasiya mərkəzi" adlı layihə işləmişlər. Layihə əsasında kitabxananın 8 nəfər əməkdaşı həmin mərkəzdə Amerika kitabxana və informasiya proqramı çərçivəsində təhsil almışdır.

Kitabxana Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu - ACİ YF (Soros fondu) ilə də geniş əməkdaşlıq işi quraraq, göstərdiyimiz layihələr üzrə qrantlar udmuşdur:

- Beynəlxalq kitab mübadiləsinin genişləndirilməsi;
- Çadır şəhərciklərinə kitab bağlamalarının göndərilməsi;
- Kitabxananın İnternet zalının genişləndirilməsi;
- Kitabxanada Tədris Mərkəzinin yaradılması;
- Regional məlumat-informasiya mərkəzlərinin yaradılması və s.

Dövlət kitabxanası eyni zamanda bu fondların yardımı ilə müxtəlif beynəlxalq konfransların və seminarların iştirakçısı olmuşdur. Onlardan:

- "Kitabxana Assosiasiyaları - regional əməkdaşlıq" adlı II Cənubi Qafqaz regional kitabxana konfransı (Tbilisi, 1999, aprel).
- UNIMARC və biblioqrafik nəzarət (Tbilisi, 1999, oktyabr; Bakı, 2000, mart)
- BMT-nin materialları üzrə ümumi məlumat axtarışı və informasiyanın əldə olunması (Moskva, 2000, may)
- YUNESKO-nun məlumat bazalarının yaradılması (Bişkek, 2000, oktyabr)
- "Krım-2000" beynəlxalq konfransı (Sudak, 2000, iyun)
- "elFL-direct" adlı elektron jurnallara həsr olunmuş seminar (Budapeşt, 2001, sentyabr)
- "Knm-2001" beynəlxalq konfransı (Sudak, 2001, iyun)

Bütün bunlarla yanaşı, kitabxanada kadrların yetişdirilməsi məsələsinə də geniş yer ayrılmış, onların yeni texniki vərdişlərinin artırılması məsələlərinə diqqət verilmiş və xarici dil öyrənilməsi üçün kurslar təşkil olunmuşdur. Kitabxana həmçinin öz metodik mərkəz vəzifəsini həyata keçirərək Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsinə metodik köməklik etmək üçün kadr hazırlığına başlamışdır. Kitabxananın yanında 2000-ci ildə Tədris Mərkəzi yaradılmış və kütləvi kitabxanaların işçiləri bu mərkəzdə öz ixtisaslarını artırmağa başlamışlar. Müstəqillik illərində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası milli ideologiyanın formalaşmasında və təbliğində də mühüm işlər görmüşdür. Milli ideologiyaya dair təşkil edilən daimi və tematik kitab sərgiləri həmişə oxucuların diqqət mərkəzində olmuş, keçirilən kütləvi tədbirlərdə oxucular həvəslə iştirak etmişlər. Son 10 ildə kitabxanada 595 adda kitab sərgisinin, onlarla mühazirənin təşkil edilməsi dediklərimizə parlaq sübutdur [3, s. 246-248].

Müstəqillik illərində dövlətin diqqət və qayğısı ilə əhatə edilmiş M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası başqa müəssisələr kimi keçid dövrünün böyük iqtisadi çətinliklərinin öhdəsindən gəlməyə müvəffəq oldu, öz iş ritmini saxladı, oxuculara xidmət işini uğurla həyata keçirə bildi. Hər şeydən əvvəl, ölkənin baş kitabxanası kimi respublikada bütün

kitabxanaların elmi-metodik təminat mərkəzi funksiyasını dayandırmadı. Kitabxana işinin demokratikləşdirilməsi, milliləşdirilməsi, azərbaycanlaşdırılması prosesində yaxından iştirak etməklə bu prosesə başçılıq etdi.

Milli Kitabxananın ən mühüm vəzifələrindən biri də Azərbaycan həqiqətlərinin ölkə xaricində daha geniş təbliğində fəal iştirak etmək, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə təqdim etmək, eləcə də Azərbaycana məxsus nəşrlərin ölkəyə gətirilməsidir. İllər ərzində dünya kitabxanaları ilə bağlanan qarşılıqlı əməkdaşlığa dair memorandumlar sayəsində bu gün Milli Kitabxana 60-dan çox dünya kitabxanası ilə beynəlxalq kitab mübadiləsi işini həyata keçirir. Hər il beynəlxalq kitab sərgilərində iştirak edir [7].

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanunu rəhbər tutaraq Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat işləri üzrə aparıcı müəssisə və əlaqələndirici, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya və informasiya xidməti gösətərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir. Ölkənin bütün kitabxanaları üçün metodik mərkəz kimi Milli Kitabxana tərəfindən respublikada mövcud olan Mərkəzləşdirilmiş Kitabxana Sisitemlərinə və kütləvi kitabxanalara mütamadi olaraq ezamiyyətlər təşkil edilir.

Dövlətimiz müstəqillik əldə etdikdən sonra M.F.Axundov adına ümumi kitabxana Milli Kitabxana statusunu qazanmış və onun fəaliyyətində çox ciddi və nəzərə çarpan inkişaf meyilləri özünü biruzə vermişdir. Yeri gəlmişkən bir məsələni qeyd etmək lazımdır ki, Milli kitabxana son illərdə öz fəaliyyətini dünya standartlarına uyğun qurmağa cəhd göstərən ən qabaqcıl kitabxana müəssisələrdən biri kimi özünü təqdim etmişdir. Son illərdə yeni texnoloji problemlərin tətbiqi ilə bağlı qabaqcıl təcrübə qazanmış, Azərbaycanın milli kitabsaxlayıcısı kimi respublikada yeni çıxan bütün çap məhsulatının əldə edilməsində, xüsusilə Respublika Prezidentinin fərmanına uyğun olaraq çap edilən klassik ədəbiyyatımızın bütün nümunələrinin əldə edilməsi və komplektləşdirilməsində xüsusi fəaliyyət göstərmişdir.

Qeyd edək ki, Azərbaycan kitabxanaları arasında maşınlaoxunan biblioqrafik yazıların, elektron kataloqun yaradılması üzrə aparıcı müəssisələrdən biri də M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasıdır. Milli kitab fondunun bu cür surətlə artması kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması 2006-cı ilin may ayında Milli kitabxananın veb saytının və elektron kataloqunun tədqiqatı ilə başlamışdır. 2006-cı ildən Milli kitabxananın saytı vasitəsilə bir sıra beynəlxalq məlumat bazalarında – ABŞ-ın Konqres Kitabxanasının və Rusiyanın Milli Dövlət Kitabxanasının bazasında axtarış aparmaq imkanı əldə edilmişdir. Milli Kitabxanada dünyamn bir çox iri kitabxanalarında tətbiq olunan “VTLS-VİRTUA” (ABŞ) adlı sistem vasitəsilə həyata keçirilən avtomatlaşdırma oxucu sorğularının virtual şəkildə ödənilməsinə və ödənilən arayışların tam şəkildə məlumat bazasında saxlanmasına şərait yaradır, onların təkrar istifadəsinə imkan verir. Bundan başqa, “VTLS” avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında elektron kataloq vasitəsilə oxuculara operativ məlumat verilməsi məsələsini də həll edib.

M.F.Axundov adına Milli Kitabxananın elektron kataloqunda yazılar MARC 21 formatında (AACR 2 biblioqrafik təsvir sistemi üzrə) işlənilir. Hazırda AMK-də 230 min biblioqrafik yazı EK-ə daxil edilib. Milli Kitabxana avtomatlaşdırma işinə də xüsusi əhəmiyyət verməklə, bir çox kitabxana-informasiya proseslərinin yeni kommunikasiya texnologiyaları ilə təmin edilməsi işində xüsusi fəaliyyət göstərirlər. Respublika Milli Kitabxanasında artıq 2006-cı ildən etibarən yeni informasiya texnologiyaları vasitəsilə tələbatçılara kitabxana-informasiya xidmətinin göstərilməsi müasir dünya təcrübəsinə uyğun yenidən qurulması əsas vəzifələrdən biri kimi yerinə yetirilməyə başlanır. Artıq Respublika Milli Kitabxanası ölkədə kitabxana proqramlarının tətbiqi sahəsində aparıcı müəssisələrdən biri kimi fəaliyyətə başladı. Bu fəaliyyət dəstəyi ilə yanaşı bir sıra beynəlxalq təşkilatların maliyyə dəstəyi ilə həyata keçirilməyə başlandı. “Maşınlaoxunan elektron kataloqun yaradılması” layihəsi əsasən, Avrasiya Fondu, SOROS

Fondu və İRTCL – qrant verən təşkilatların maliyyə dəstəyi hesabına həyata keçirilmişdir. Hazırda elektron kataloq vasitəsilə kitabxananın (www.anl.az) saytına girməklə fondda olan çap məhsulatı vasitəsilə istənilən məlumatları əldə etmək mümkündür. Bütün məlumatlar MARC-21 formatında fonda daxil edilir [5, s.42].

Milli Kitabxana il ərzində bütün kitabxanalar üçün metodik mərkəz rolunu oynayır. İl ərzində yubileyi olan Azərbaycanın məşhur elm, mədəniyyət xadimlərinin şair və yazıçıların virtual sərgisini təşkil edir. Pandemiya dövründə virtual xidməti təşkil etməklə minlərlə oxucuya onlayn xidmət göstərmişdir. Ölkənin bütün kitabxanaları üçün metodik mərkəz kimi Milli Kitabxana tərəfindən respublikada mövcud olan Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə və kütləvi kitabxanalara mütəmadi olaraq ezamiyyələr təşkil edilir. Bu ezamiyyələrin məqsədi region kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması, innovasiyaların kitabxana təcrübəsinə tətbiqi, kitabxanaçılarda yeni texniki vasitələrdən istifadə vərdişlərinin təkmilləşdirilməsi, oxuculara innovativ elektron xidmətlər göstərilməsinə kömək etməkdən ibarətdir.

2021 ci ilin illik hesabatına görə Milli Kitabxananın fondu 4.629.442 nüsxə təşkil edir. Həmin hesabatda Milli Kitabxanada tammətnli elektron resursların yaradılması işi də qənaətbəxş olmuşdur [6].

## Nəticə

*Cari ildə 100 illik yubileyini qeyd edən M.F. Axundov adına Milli Kitabxana bir əsrdir xalqımızın mədəniyyətinin və elminin keşiyində şərəflə durmuş, bu müddət ərzində oxucularının sayı milyonlarla ölçülmüşdür. Bu gün Milli Kitabxnanı elm, təhsil məbədi da adlandıra bilərik. Ümumilli lider Heydər Əliyevin hələ 1995 ci il 3 iyun tarixində onun M.F.Axundov adına Dövlət Kitabxanasında “Vətənə, dövlətə, xalqa sədaqət andı” miniatür kitabın təqdimatında söylədiyi nitqdə Kitabxananı xalq, millət cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi adlandırmaqla ona yüksək dəyər vermişdir. Göründüyü kimi Heydər Əliyevin kitabxanaya və kitabxana işinə verdiyi önəm diqqətə layiqdir. Beləliklə, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası müstəqillik illərində H.Əliyevin bilavasitə köməyi və qayğısı sayəsində hər cür çətinliyə sinə gərərək öz şərəfli işini müvəffəqiyyətlə davam etdirmiş, xalqımızın informasiya təminatına, mədəni inkişafına, intellektual yüksəlişinə, elminə, təhsilinə, tərbiyəsinə xidmət etmiş, milli dövlətçiliyimizin möhkəmləndirilməsində, milli ideologiyamızın formalaşmasında və təbliğində yaxıdan iştirak etmişdir. Bu gün müasir stnadartlarla fəaliyyətini davam etdirən M. F.Axundov adına Milli kitabxana xalqımızın həqiqi mənada milli-mədəni sərvətirdir.*

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası “Mədəniyyət Qanunu” (1998) 06.02.1998-ci il

2. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu Bakı: Biznesmenin bülleteni, 1999, s 16

3. Xələfov.A.Azərbaycanda kitabxana işinin tarixi” dəsrlik 3 hissədə 2c Bakı- BDU s .552

4. Xələfov. A.Kitabxanaşünaslığa giriş dərslik. Bakı, Bakı Universiteti Nəşriyyatı,2003,-314 s.

5. Ulduz Manafova “M.F.Axundov adına Milli Kitabxanada sənəd-informasiya resurslarından istifadənin təşkilində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin müasir vəziyyəti” Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. № 2 (44)/2019.– Bakı, Mütərcim, 2019. – 112 səh.

6. 2021-ci il Milli Kitabxananın hesabatı M.F. Axundov adına Milli Kitabxananın saytı.

**Khanimbaji Malikzadeh**
**National Library named after M. F. Akhundov is the cultural wealth of our nation**

The article briefly reviews the one-century history of the National Library named M. F. Akhundov and analyzes its current situation. It is pointed out that the laws and decrees signed by Haydar Aliyev on library work after his return to power led to the development of the National Library. The author notes the National Library named after M.F.Akhundov server the information supply, closely participated in the strengthening of our national statehood, the formation and promotion of our national ideology.
***Key words:*** *library work, National Library, Haydar Aliyev, cultrual politics*

Tarix elmləri doktoru, dosent **Tahirə Həsənzadə**
tərəfindən çapa tövsiyə olunmuşdur.